ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

Şəhidlərimizin əziz xatirəsinə dualar oxunub

Bakı, Təzəpir məscidi

Məscidlərimizdə 27 Sentyabr - Anım Günündə şəhidlərimizin xatirəsi anılıb.

AZƏRTAC xəbər verir ki, Təzəpir məscidində əvvəlcə Vətən müharibəsində canını qurban verən şəhidlərimizin ruhuna dualar oxunub.

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək bildirib ki, xalqımız bu gün öz tarixində möhtəşəm gün - Zəfər yolunun başlanğıcı sayılan 27 Sentyabr - Anım Gününü qeyd edir. Azərbaycan torpaqlarının 30 illik erməni işğalına son qoyan Vətən müharibəsinin başlanmasından bir il ötür. Uca Allahın köməyi, Prezident, Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu müqəddəs Vətən torpaqlarımızı işğaldan azad etmək üçün ayağa qalxdı, beynəlxalq hüququn təmin edə bilmədiyi ərazi bütövlüyümüzü bərpa etmək kimi şərəfli vəzifəni həyata keçirdi. Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda qəhrəmanlıqla vuruşan ordumuz Müzəffər Liderimizin siyasi iradəsi və qalib sərkərdəliyilə dünya hərb tarixinə Şuşa qalasının alınması kimi şanlı səhifə yazdı, Azərbaycan Bayrağını əzəli torpaqlarımızda ucaltdı.

Şeyxülislam Allahşükür Paşazadə deyib ki, tarixi ədalətin bərpası yolunda Haqq savaşımızın mübarək tarixi hər bir azərbaycanlının şərəf günü, qürur mənbəyidir. Bu tarixin milli-mənəvi dirçəlişimizin, dövlətçilik qüdrətimizin, Vətən sevgisinin, iman gücünün zirvəsi olaraq xalqımızın yaddaşında önəmi olduqca böyükdür. Azərbaycan xalqı 27 sentyabrda illərlə həsrətində olduğu əzəli torpaqlarını işğalçıdan, öz milli, dini, mədəni abidələrini əsarətdən azad etmək yolunda, bərbad edilmiş şəhər, kəndlərimizə, yaşayış məskənlərimizə sahib çıxmaq üçün haqq mübarizəsinə başladı. Müqəddəs Qurani-kərimdə buyurulduğu kimi: *"Düşmən hücumuna məruz qalanlara (möminlərə) zülmə uğradıqları üçün (döyüşməyə) izn verilmişdir. Şübhəsiz ki, Allah onlara yardım etməyə qadirdir" (Həcc, 39)*

Qələbəmiz naminə qurbanlar verdik, dini və milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycan vətəndaşları Vətən yolunda canlarını fəda etdilər. Onların hər birinin boynumuzda haqları vardır. Bu gün biz Vətən uğrunda şəhid olanlarımızı rəhmət dualarıyla yad edir, ailələrinə, yaxınlarına başsağlığı veririk. Vətən müharibəsində şücaət göstərərək şəhidlik məqamına yüksəlmiş Azərbaycan Ordusunun qəhrəman əsgər və zabitlərinə Allahdan rəhmət, qazilərimizə şəfalar diləyirik!

QMİ sədri deyib ki, Azərbaycan tarixinə Böyük Fateh, tarixi ədalətin bərpası yönündə şanlı qələbələri ilə əbədi həkk olunan dövlət rəhbərimizin misilsiz səyləri ilə dünya azərbaycanlılarının 30 illik Qarabağ həsrətinə, həmçinin insanlıq tarixində böyük ədalətsizliyə, vandalizmə, bəşəri cinayətlərə son qoyuldu, məscidlərimiz, ziyarətgahlarımız əsl sahiblərinə qaytarıldı. Möhtərəm dövlət başçımız dağıdılmış, lakin milli ruhumuz, tarixi kimliyimiz üçün mənəvi əzəmətini qoruyub saxlayan məscidlərə, xristian məbədlərinə yeni nəfəs verəcəyini bəyan etdi. Bu gün Azərbaycan xalqının əbədi, əzəli torpaqlara Böyük Qayıdışını təmin etmək, erməni faşistləri tərəfindən vəhşicəsinə viran qoyulmuş şəhər və kəndləri dirçəltmək, Qarabağda müasir, yüksək səviyyədə həyat şəraiti təmin etmək istiqamətində dövlətimiz fövqəladə tədbirlər reallaşdırır. Din xadimlərinin unudulmaz Ağdam, Şuşa səfərləri zamanı viran qoyulmuş məscidlərimizi, xristian məbədlərini görmək nə qədər kədərli idisə, Şuşada əsası qoyulmuş yeni, möhtəşəm məscid binasının təməlini, bərpa və yenidən qurulan məscid və məbədləri görmək bir o qədər fərəhvericidir. Füzulidə fəaliyyətə başlamış Beynəlxalq Hava Limanı, Şuşaya aparan "Zəfər yolu" qalib Azərbaycan dövlətinin iqtisadi qüdrətinin təcəssümüdür. Uca Allahın köməyi ilə, müdrik dövlət rəhbərimiz zati-aliləri İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın misilsiz səyləri ilə əminik ki, ən qısa zamanda Azərbaycanın Qarabağ torpaqları öz yeni, gözəl görkəmi ilə hər birimizi sevindirəcəkdir.

Bizim Vətən müharibəmiz, qələbəmiz qlobal əhəmiyyətli, dünya siyasətinin gedişatına təsir edən, yeni düzən yaradan bir zəfərdir - haqqın, ədalətin şər üzərində qələbəsidir. Bu, İslam ümməti adına böyük qələbədir. Qardaş Türkiyə dövlətinin siyasi-mənəvi dəstəyi, dost yardımı, birgə imzalanan Şuşa Bəyannaməsi tarixdə qalacaq əsl qardaşlıq örnəyidir. Fürsətdən istifadə edərək, Vətən mücadiləmizdə bizə dəstək verən, haqqımızı müdafiə edən istər müsəlman, istər xristian dövlətlərinə, dost, qardaş ölkələrə bir daha minnətdarlığımızı ifadə etmək istərdim.

Dindarlarımız, xüsusən din xadimlərimiz həmin mübarək, taleyüklü günlərdə gecəli-gündüzlü xalqın yanında oldular, əsgərlərimizə, onların ailə və yaxınlarına dini-mənəvi xidmət göstərdilər. Bu, bizim din xadimi olaraq mənəvi vəzifəmiz, vətəndaşlıq borcumuzdur və biz bu vəzifəmizi hər zamankı kimi layiqli şəkildə həyata keçirdik. Din xadimlərimiz sırasında öz vəzifə borcunu yerinə yetirərkən şəhid olanlar oldular. Fəxarətdoğurucu haldır ki, möhtərəm dövlət başçımız İlham Əliyev cənabları mədəniyyət mərkəzimiz Şuşanın Cıdır düzündə etdiyi tarixi çıxışı zamanı Azərbaycan dindarlarının Vətən müharibəsində qazanılan Zəfərdə töhfəsini xüsusi qeyd etdi.

QMİ sədri deyib ki, bu gün islam tarixində böyük önəmi olan bir gün - şəhidlik məktəbinin ali nümayəndəsi Həzrəti Hüseyn əleyhissəlamın şəhadətinin 40-cı günü - Ərbəin qeyd olunur. Bu günün özəlliyi və əhəmiyyəti 1400 ilə yaxın müddət ərzində ümmətin yaddaşında qorunub saxlanılan, iman və ədalət uğrunda şəhidliyə hazır olmağın rəmzi kimi yad edilməsindədir. Bu fəlsəfəni gözəl dərk edən və ona dəyər verən xalqımız builki Ərbəini tarixinin möhtəşəm ildönümü günündə qeyd edir. Vətən şəhidlərimizin Anım Gününün məhz bu tarixə təsadüf etməsinin özündə də bir ilahi hikmət vardır. Zəfəri bizə bəxş edən şərafətli şəhidlərimizin anaları başlarını dik tutsunlar, Vətən onların Allahın cənnətinə ucalmış övladları ilə fəxr edir, qürur duyur. Müqəddəs kitabımızda buyurulduğu kimi: *"Allah yolunda şəhid olanları əsla ölü zənn etməyin! Əksinə, onlar diridirlər və onlara Rəbbinin cənnət ruzilərindən əta olunur" (Ali-İmran, 169).*

Bu gün Vətən müharibəmizin Anım Gününü - birinci ildönümünü və Ərbəini yüksək ehtiramla qeyd edən xalqımıza Allah əcr versin! Kərbəla şəhidlərinə, Vətən şəhidlərinə Allah-Təala rəhmət eləsin! Uca Allah hər zaman xalqımıza yardımçı olsun, müdrik dövlət rəhbərimizi və Azərbaycanımızı qorusun, qəhrəman Ordumuzu və dövlətimizi müzəffər qərar versin! Amin!

Şuşa, Yuxarı Gövhər ağa məscidi

Ermənistanın 2020-ci il sentyabrın 27-də ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə başlanan Vətən müharibəsi şanlı qələbə ilə başa çatdı. Otuz ilə yaxın işğal altında olan torpaqlarımız şəhidlərimizin - əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edildi. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizə dərin ehtiram əlaməti olaraq sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd olunur.

AZƏRTAC xəbər verir ki, şəhidlərimizin xatirəsi sentyabrın 27-də respublikamızın hər tərəfində olduğu kimi, işğaldan azad olunan Şuşa şəhərində - Yuxarı Gövhər ağa məscidində də ehtiramla anılıb. Dindarlar namaz qılaraq, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş Vətən övladlarının ruhuna dualar oxuyublar.

Qafqaz Müsəlmanları İdarəsinin qazisi Hacı Rauf Sərdarov AZƏRTAC-a müsahibəsində bildirib ki, Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri respublikamızın suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərərək qanları və canları bahasına torpaqlarımızı işğaldan azad ediblər. Xalqımız qəhrəman oğul və qızlarımızın şücaətini yüksək qiymətləndirir, şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur.

"Bu gün biz müharibənin ildönümünü qeyd edirik. Bütün məscidlərdə insanlar ibadət elədilər, Quran oxudular, şəhidlərin ruhları yad olundu. Şəhidlik elə bir məqamdır ki, Allah onu Qurani-kərimdə tərif edir. Şəhidlik zirvəsindən üstün məqam, dəyər yoxdur. Şəhidlər bizə mənəvi kimliyimizi, dəyərimizi qaytardılar. Bu gün önündə dayandığımız Yuxarı Gövhər ağa məscidi xalqımızın mənəvi bir nemətidir. Bu neməti bizə qaytaran məhz şəhidlərimiz, qazilərimiz oldu. Biz 30 il ərzində məscidlərimizdə dualar edirdik ki, torpaqlarımız düşmən tapdağından azad olunsun. Şükürlər olsun, bu gün Allah bunu bizə bəxş elədi. Artıq bu məscidlərdə ibadət edir, azan səsi eşidirik. Şəhidlər bizə şərafət gətirdilər, öz ölməzlikləri ilə bizə sevinc bəxş etdilər. Arzu edirik ki, bayrağımız daim ucalsın, xalqımız firavan yaşasın".

Ağdam, Cümə məscidi

27 Sentyabr - Anım Günü Ağdam Cümə məscidində də qeyd olunub. Ağdamlılar şəhidlərimizin əziz xatirəsini 28 ildən sonra işğaldan azad olunan doğma torpaqlarında yad edib, ruhuna dualar oxuyublar.

AZƏRTAC xəbər verir ki, Cümə məscidində din xadimlərinin iştirakı ilə namaz qılınıb və Qurandan ayələr oxunub.

Bildirilib ki, ötən ilin bu günü Azərbaycan tarixinə Vətən müharibəsinin başlanması kimi həkk olundu. Ermənilərin 30 ilə yaxın işğal altında saxladıqları torpaqlarımız şəhidlərimizin qanı bahasına azad edildi. Uzun illər mif olaraq təqdim edilən erməni sədləri elə ilk gündə ordumuz tərəfindən darmadığın olundu. Ordumuz bütün cəbhə boyu irəlilədi və düşmən Azərbaycan əsgərinin qarşısında diz çökdü. 44 günlük döyüşlərdə bir çox yaşayış yerlərini atəşə tutan ermənilər sakinlərimizi qorxutmağa çalışsa da, buna nail ola bilmədi. Darmadağın olan düşmən ordumuz qarşısında tab gətirməyərək kapitulyasiya aktına imza atdı. Digər torpaqlarımızla bərabər, üçtərəfli bəyanata uyğun olaraq, ötən il noyabrın 20-də Ağdamın işğal altında olan hissəsi də düşməndən azad edildi.

Mərasim zamanı Ağdamda erməni vəhşiliyindən, talan edilən tarixi-dini abidələrimizdən də söhbət açılıb. Bildirilib ki, 30 ilə yaxın erməni terroruna məruz qalan Ağdam şəhəri xarabalığı xatırlatsa da, artıq əsl sahiblərinə qovuşub. Ağdamda həyat öz axarına qayıdır. Tikinti-quruculuq işlərinə start verilib və yaxın gələcəkdə Ağdam gözəl bir diyara çevriləcək.

Ağdamda şəhidlərimizin Anım Günündə iştirak edənlər arasında Prezidentin Ağdam üzrə xüsusi nümayəndəliyinin üzvləri, Ağdam və Bərdədən olan din xadimləri, o cümlədən Ağdamda xidmət keçən polis əməkdaşları və hərbçilər olublar.

Şəhidlərimizin xatirəsi yad edildikdən sonra tədbir iştirakçıları Cümə məscidinin önündə televiziya vasitəsilə Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin Anım Günü ilə əlaqədar xalqa müraciətini dinləyiblər.

Laçın, Ağoğlan monastırı

Ermənistan işğalından azad olunan Laçın rayonundakı Ağoğlan monastırında 27 Sentyabr - Anım Günü ilə əlaqədar dini mərasim keçirilib.

AZƏRTAC xəbər verir ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı və maliyyə dəstəyi ilə 27 Sentyabr - Anım Günü münasibətilə Alban-Udi xristian dini icmasının üzvlərinin, ictimaiyyət və media nümayəndələrinin Laçın rayonunda yerləşən Ağoğlan monastırına səfərləri təşkil edilib.

Ağoğlan monastırını ziyarət edən icma nümayəndələri burada dini ayinlər icra edib, Vətən müharibəsi şəhidlərinin ruhuna dualar oxuyublar.

Alban-Udi xristian dini icmasının sədri Robert Mobili qeyd edib ki, dini icma olaraq bu, onların Ağoğlan məbədinə ikinci səfəridir. Amma bugünkü ziyarət xüsusi əhəmiyyətə malikdir. Çünki bu səfər ötən il sentyabrın 27-də başlayan 44 günlük Vətən müharibəsinin bir illiyinə təsadüf edir. "Alban-Udi xristian dini icması olaraq 27 Sentyabr - Anım Günü ilə əlaqədar ibadətimizdə şəhidlərimizi yad etdik, şamlar yandırdıq, dualar oxuduq. Şəhidlərimizin ruhuna hörmət və ehtiramımızı bir daha ifadə etdik. Heç vaxt unutmamalıyıq ki, biz Qarabağı şəhidlərimizin qanı və canı bahasına işğaldan azad etmişik. Məhz Qarabağdakı bütün məbədlərimizdə, o cümlədən Ağoğlan monastırındakı bugünkü ibadətimiz də Azərbaycan Ordusunun qəhrəmanlığı, şəhidlərimizin fədakarlığı, qazilərimizin şücaəti nəticəsində mümkün olmuşdur. Bizim gücümüz, bizim birliyimizdədir. Çünki bir il bundan əvvəl Vətən müharibəsi başlayanda ermənilər çox cəhd göstərdilər ki, Azərbaycan xalqının haqq işini bütün dünyaya dini və etnik zəmində baş verən bir müharibə kimi təqdim etsinlər. Lakin Azərbaycanda yaşayan bütün dinlərdən və millətlərdən olan insanların Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsi ilə düşmən öz istəyinə, məkrli niyyətinə nail ola bilmədi. Nəticədə Azərbaycan xalqının birliyi - "Dəmir yumruq" düşməni məhv etdi, bizə Zəfər sevincini yaşatdı", - deyə Robert Mobili bildirib.

V-VI əsrlərə aid alban monastırı olan Ağoğlan məbədi Laçın rayonu ərazisində, Ağoğlan çayının sahilində yerləşir. Tarixi abidə əvvəllər qəsr olub, lakin müxtəlif dövrlərdə dağıntılara məruz qaldığından IX əsrdə kilsə üslubunda yenidən inşa edilərək monastır formasına salınıb.

2020-ci il sentyabrın 27-dən başlayan Vətən müharibəsinin nəticəsi olaraq əzəli və əbədi yurd yerlərimiz kimi, tarixi mədəni irsimiz də düşmən işğalından azad edilib. Düşmən 30 ilə yaxın işğal altında saxladığı Qarabağın əsrarəngiz təbiətinə qarşı ekosid, zəngin tarixi, maddi-mədəni və dini abidələrimizə qarşı isə urbisid həyata keçirib, bəzi yerlərdə isə alban-xristian dini irsinə aid abidələrin ermənilərdirilməsinə cəhd göstərib.

Alban-xristian irsinin ən qədim və möhtəşəm nümunələrindən olan Ağoğlan məbədi ermənilərin 30 ilə yaxın işğalı dövründə monastır kimi fəaliyyət göstərsə də, ermənilər bu abidənin ilkin memarlığına da əsassız müdaxilələr edib, məbədin divarlarındakı xristian dininə aid ortaq element və rəmzləri saxlayıb, lakin alban apostol kilsəsinə aid günəş, ay, od, kimi rəmzləri və qədim kitabələri dağıdıb, məbədin altarını və bazilikasını dəyişdirib, divarlara və sütunlara erməni-qriqoryan kilsəsinə aid çoxlu sayda xristian elementlərini kobud şəkildə müncər ediblər. Nəticədə Azərbaycan xalqının qədim dini-tarixi irsinə aid olan Ağoğlan məbədi xeyli dəyişikliyə məruz qalıb.

Qeyd edək ki, Ermənistanın Azərbaycana qarşı 2020-ci il sentyabrın 27-dən başlayan növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı işğal altındakı torpaqlarımızın azad edilməsi məqsədilə Vətən müharibəsinə qalxdı. Ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik göstərərək düşmənə sarsıdıcı zərbələr endirdi. Azərbaycan Ordusunun Zəfər yürüşünə tab gətirməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətdi. Həmvətənlərimiz şəhid oldu, itkin düşdü, yaralanaraq sağlamlığını itirdi. 44 günlük Zəfər yürüşündə torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad olundu.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycanda Anım Günü kimi qeyd edilir.

Quba, "Giləki" sinaqoqu

Qubada yaşayan dağ yəhudiləri torpaqlarımızın azadlığı və suverenliyi uğrunda şəhid olan Vətən oğullarının xatirəsini ehtiramla anıblar.

AZƏRTAC xəbər verir ki, 27 Sentyabr - Anım Günü ilə əlaqədar Qırmızı qəsəbədəki "Giləki" sinaqoqunda Anım tədbiri keçirilib.

Quba rayonu Qırmızı qəsəbə Dağ yəhudiləri dini icmasının nümayəndələri şəhidlərimizin ruhuna dualar oxuyaraq, işğala son qoymaq üçün canından keçən həmvətənlərimizin xatirələrinə ehtiramlarını bildiriblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbəsinin nümayəndələrinin də iştirak etdiyi tədbirdə bildirilib ki, Azərbaycan 44 gün ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu Vətən müharibəsinin hər günü bizim şanlı tariximizdir. Vətən müharibəsində Azərbaycan Ordusu möhtəşəm qələbəsi ilə Qafqaz regionunun ən güclü ordusu olduğunu göstərdi.

Quba Rayon İcra Hakimiyyəti başçısının Qırmızı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəsi Telman Muxaylov AZƏRTAC-ın bölgə müxbirinə deyib ki, Vətən müharibəsində Azərbaycan xalqı, o cümlədən ölkəmizdə yaşayan bütün azsaylı xalqlar Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək düşmənə qarşı bütün cəbhələrdə mübarizə apardı.

"Şəhid ailələri hər birimiz üçün əzizdir. Onların övladları Vətən və millət uğrunda şəhid olublar. Dağ yəhudiləri vətənləri olan Azərbaycanın uğrunda döyüşməyə və şəhid olmağa həmişə hazırdırlar. Hələ Birinci Qarabağ müharibəsində milliyyətcə yəhudi olan, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov işğal altındakı torpaqlarımız uğrunda qəhrəmanlıqla döyüşərək şəhidlik zirvəsinə ucalıb. Vətən müharibəsində də onun davamçıları düşmənə qan udduran qəhrəmanlar sırasında olublar", - deyə Telman Muxaylov söyləyib.

Qax, "Müqəddəs Georgi" kilsəsi

Şanlı zəfərlə başa çatan Vətən müharibəsinin başlanmasından bir il ötür. Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda başlanan və 44 gün davam edən Vətən savaşında rəşadətli Azərbaycan Ordusu, ürəyində torpaq, millət sevgisi olan igid oğullarımız Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi qələbə qazanıb, mənfur düşməni əzəli torpaqlarımızdan qovublar. Müharibələr itkisiz olmur. Bu döyüşlərdə şəhidlərimiz də oldu, qazilərimiz də. Vətən müharibəsində ölkəmizdə yaşayan azsaylı xalqların nümayəndələri, o cümlədən Qax rayonunda yaşayan gürcülər də yaxından iştirak edib, döyüşlərdə qəhrəmanlıqlar göstəriblər. Azərbaycanı özlərinin doğma Vətəni hesab edən bu azsaylı xalqların nümayəndələri müharibə başa çatanadək əsgərlərimizlə çiyin-çiyinə vuruşub, öz vətəndaşlıq borclarını layiqincə yerinə yetiriblər.

Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bu gün Azərbaycanın hər yerində, şəhər, qəsəbə və kəndlərimizdə, dini ocaqlarda, məscidlərdə, kilsə və sinaqoqlarda dərin ehtiramla yad olunur.

AZƏRTAC xəbər verir ki, sentyabrın 27-də - Anım Günündə Qax rayonunun Qaxingiloy kəndindəki "Müqəddəs Georgi" kilsəsində Vətən müharibəsi şəhidlərinin xatirəsinə ehtiram əlaməti olaraq Anım mərasimi keçirilib. Rayonun gürcü pravoslav xristian əhalisinin nümayəndələrinin iştirak etdiyi mərasimdə şəhidlərin ruhuna dualar oxunub, xatirəsinə şamlar yandırılıb. Səhər saatlarından başlayaraq şəhidlərin əziz xatirəsinə kilsə zəngi çalınıb.

Mərasimdə iştirak edən kilsənin keşişi Petre Xumaraşvili Azərbaycan xalqına sülh və əmin-amanlıq arzulayıb, Vətən uğrunda canlarından keçən şəhidlərin ruhu qarşısında baş əydiyini bildirib.

Anım Günü ilə əlaqədar kilsədə dini ayinlər gün ərzində davam edəcək.

Bakı, Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsi

Düz bir il bundan əvvəl başlayan 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu torpaqlarımızı təxminən 30 illik işğaldan azad edib.

AZƏRTAC xəbər verir ki, bütün ölkə ərazisində bu tarixi hadisənin ildönümü ilə əlaqədar Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda qəhrəmancasına həlak olmuş Vətən övladlarının xatirəsinə həsr olunan tədbirlər keçirilir. Həmçinin erməni təcavüzünün qurbanına çevrilən dinc sakinlərin də xatirəsi yad edilir.

Qeyd edək ki, Azərbaycan Ordusunun sıralarında ölkəmizdə yaşayan bütün xalqların nümayəndələri vuruşub. Onların arasında öz müqəddəs borclarını yerinə yetirərkən həlak olan etnik ruslar da var.

Sentyabrın 27-də Bakıda - Müqəddəs Miradaşıyan Qadınlar Kafedral Kilsəsində Vətən müharibəsi şəhidlərinin Anma mərasimi keçirilib.

Şəhidlərin ruhuna dualar oxunub. İbadət mərasimi kilsənin baş keşişi, protoierey Leonid Miltıxın rəhbərliyi ilə icra edilib.

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yeparxiyasının mətbuat katibi, protoierey Konstantin Pominov jurnalistlərə müsahibəsində bildirib ki, millətindən və dini etiqadından asılı olmayaraq, Azərbaycan Ordusunun bütün hərbçiləri doğma torpaqlarını müdafiə edərək son damla qanlarınadək vuruşublar. Şəhidlərin - Vətən müharibəsi qəhrəmanlarının xatirəsi əbədi yaşayacaq.

Konstantin Pominov onu da vurğulayıb ki, Azərbaycan rəhbərliyi ölkədə bütün millətlərin və dinlərin nümayəndələri arasında dostluq və mehriban qonşuluq ab-havasının hökm sürməsindən ötrü əlindən gələni edir. Bizim ölkəmizi parlaq gələcək gözləyir.

Bakı, Müqəddəs Məryəm Katolik Kilsəsi

Sentyabrın 27-də Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində Vətən müharibəsi şəhidlərinin Anım mərasimi keçirilib. Mərasimdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəmanlarımızın xatirəsi yad edilib.

AZƏRTAC xəbər verir ki, Roma-Katolik kilsəsinin Azərbaycandakı apostol prefekturasının ordinarisi Vladimir Feketenin iştirakı ilə keçirilən mərasimdə dini ayinlər icra edilib, şəhidlərin ruhuna dualar oxunub.

Vladimir Fekete jurnalistlərə müsahibəsində bildirib ki, 27 Sentyabr Azərbaycanda İkinci Qarabağ müharibəsi şəhidlərinin Anım Günü elan olunub. Bu müharibənin bütün qurbanları üçün xüsusi ibadət keçirilir. Müqəddəs Məryəm Kilsəsində şəhidlərimizin xatirəsinə xüsusi ayin mərasimi keçirilir: "Qoy oğullarını itirən anaların, ərlərini itirən qadınların acılarını, qazilərin yaralarını Rəbbimiz tez bir zamanda sağaltsın. Qoy Ulu Tanrı azad edilən torpaqların tezliklə məskunlaşdırılmasında bizə yardımçı olsun. Bu torpaqları tərk etmək məcburiyyətində qalan yüz minlərlə insan doğma yurdlarına qayıtsın və uzun illər yaşamaqda davam etsinlər. Qoy Uca Tanrı xalqımızın daha sıx birliyinə və rifahının yüksəlməsinə kömək etsin".